**Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin geyim formalarının verilmə qaydaları, normaları və istifadə müddətlərinin təsdiq edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 28 sentyabr tarixli, 241 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin geyim formalarının verilmə qaydaları, normaları və istifadə müddətləri təsdiq edilsin (əlavə edilir).

2. Müəyyən edilsin ki, ədliyyə orqanları işçilərinə geyim formalarının alınması üçün lazım olan vəsait Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin saxlanılması üçün büdcədə müvafiq xərc yarımmaddəsində nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış formaya uyğun olaraq, bu qərarla təsdiq edilmiş normalar üzrə təminatın cari ilin dekabr ayının 31-i vəziyyətinə dair hesabatı növbəti ilin fevral ayının 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.[1]

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 27 iyul 2000-ci il**

**№ 131**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 3058-3059.**